# XOCALI SOYQIRIMI: QAN YADDAŞIMIZ



**Sabir Surxay oğlu Məmmədov Xocalı Şəhər Milis Bölməsinin ilk və son rəisi olub. Xocalı hadisələri ilə bağlı mütəmadi olaraq müxtəlif tədbirlərdə, kütləvi informasiya vasitələrində çıxışlar edir. Onun çıxışlarının leytmotivini həmişə "Şuşasız, Ağdamsız, ümumiyyətlə Qarabağsız Azərbaycan yoxdur!", "Qarabağ həm dünənki, həm bugünki, həm də sabahkı tariximizdir", "Tarixi saxtalaşdırmaq cinayətdir" devizi təşkil edir. S.Məmmədov nümunəvi xidmətinə görə keçmiş daxili işlər naziri Məhəmməd Əsədovun əmrilə "Əla xidmətə görə", "Milis əlaçısı" döş nişanlarına, Xocalının ərazi bütövlüyü və mülki sakinlərin mühafizə və müdafiəsinə görə Xocalı Şəhər ZDS İcraiyyə Komitəsinin fəxri fərmanlarına (1990-1992), Azərbaycan Veteranlar Təşkilatının "General Cəmşid Naxçıvanski", "General Əliağa Şıxlinski" və "General Həzi Aslanov" yubiley medallarına və bir sıra digər təltiflərə layiq görülmüşdür. O, I Qarabağ müharibəsi veteranı, "Qızıl qələm" media mükafatı laureatıdır, bundan başqa "Xocalı Yaddaşı" diplomu və "Veteran həmrəyliyi", Veteran hərəkatında fəal iştirakına görə "30 il" medalları ilə təltif olunmuşdur, Dünya Azərbaycanlılarının Mədəniyyət Mərkəzi İB Sabitlik və İnkişaf Fondu İctimai Nəzarət Koalisiyasının hüquq-mühafizə departamentinin əməkdaşıdır, Beynəlxalq Batalist və Marinist Yazıçılar Assosiasiyasınının üzvüdür. Diqqətə çatdıraq ki, Sabir Məmmədovun Xocalı hadisələrinə aid "Tarixi saxtalaşdırmaq cinayətdir" adlı IV kitabı işıq üzü görüb.**

**Azərbaycanda istər XX əsrin əvvəllərində, istərsə də sonralar sistematik surətdə baş verən erməni terrorunu, kütləvi qırğınlarını, etnik təmizləmələrini tarixi faktlarla dəlilləri araşdırıb nəticə çıxarmasaq gələcəyimizi təhlükə altına almış olarıq. Onların törətdiklərinin ən təhlükəlisi alman faşizmindən müqayisə edilməyəcək dərəcədə qəddar, barbar, heyvan xislətindən də aşağı xarakterli keyfiyyətə malik olmasıdır. Bu barədə kifayət qədər şahidlər, sənədlər vardır və hər birimizin vəzifəsi tarixən törədilmiş etnik təmizləmə hadisələrini və son olayları ətraflı, olduğu kimi dünya ictimaiyyətinə çatdırmaq, nə ermənilərin özlərinə, nə də onların beynəlxalq siyasi dayaqlarına, lobbilərinə erməni yalanlarını və tarixinlərini doğru kimi təqdim etmələrinə imkan verməməkdir. Mübarizənin gücü isə həqiqətin təbliğindədir. Bu təbliğ prosesində tarixi saxtalaşdırmaq cinayətdir. Hər bir hadisə və tarixi prosesdə iştirak etmiş insanların fəaliyyəti olduğu kimi qələmə alınmalı, hər bir hadisəyə və şəxsə obyektiv mövqedən yanaşılmalıdır.**

Xocalı soyqırımı XX əsrin ən dəhşətli və ən qəddarcasına törədilmiş Xatın, Xirosima faciələri ilə eyni səviyyədə durur. Vurğulamaq lazımdır ki, erməni yaraqlılarının etnik təmizləmə hərəkətlərinə nə xaricdən, nə də Ermənistanın strateji müttəfiqi Rusiyadan təpki yox idi. İdarə olunan kütləvi qırğın, etnik təmizləmə, qeyri-insani qəddarlıqla və terrorla müşahidə olunan, torpaqlarımızın ilhaqına hədəflənmiş bu separatizm hərəkatında nə insanlıq, nə beynəlxalq, nə də İttifaq qanunlarına əməl olunurdu. Azərbaycan Respublikası səviyyəsində tədbirlər görmək tələb olunurdu ki, bu azğınlığa və vəhşiliyin qarşısı alınsın.

Beləliklə, 1990-cı ilin mayında Əsgəran Rayon Daxili İşlər Şöbəsinin tabeliyində Xocalı Milis Bölməsi yaradılandan sonra erməni quldurlarının azğınlığının qarşısı xeyli alındı. Bölmədə xocalılılardan təşkil olunmuş 64 nəfərlik heyət toplanmışdı. Qeyd etmək lazımdır ki, bu tədbirə qədər gün ərzində Yerevandan Stepanakertə 32-40 reys "Yak-40" təyyarəsi gəlir, bunlarla silah-sursat daşınırdı. Xocalı Milis Bölməsi şöbə olduqdan sonra onun müdaxiləsi sayəsində həmin reyslərin sayı gün ərzində 4-ə, sonra 1-ə, nəhayət həftədə 1-2 dəfəyə endirildi. Xocalı Milis Şöbəsi Xocalı aeroportunun mərhum rəisi, Milli Qəhrəman Əlif Hacıyevlə birlikdə erməni separatizminin, soyqırımı təşkilatçı və icraçılarından, milli nifrət ideolqlarından biri, irqçi yazıçı və qatil həkim Zori Balayanı təyyarədən enməyə qoymamışdıq. O, məlum tarixi yalan və qondarma "erməni soyqırımı" məzmunlu Moskva səhərində buraxdığı "Ocaq" kitabı ilə "şöhrət" qazanmışdı, barbar və vandal, türk dünyasının qatı düşməni idi. Zori Balayan 1996-cı ildə yazdığı və "Voskreşeniye" ("Dirilmə") kitabında heyvandan da qatqat aşağı xislətini apaydın ortalığa qoyur: "Biz Xaçaturla zirzəmiyə girdikdə artıq bizim əsgərlər uşağı aynanın çərçivəsinə mıxlamışdılar. O, çox səs-küy salmasın deyə Xaçatur onun öldürülmüş anasının döşünü kəsdi və uşağın ağzına dürtdü. Sonra mən onun skalpını (başın tükü ilə birlikdə dərisi) çıxardım, sinəsinin və qarnının dərisini soydum. O, yeddi dəqiqədən sonra qanaxmadan öldü. Xaçatur onu doğradı və türklərdən əmələ gələn itlərə atdı. Axşam biz eyni şeyi daha üç türk uşağı ilə etdik. Mən erməni patriot və vətəndaş borcumu yerinə yetirdim. Səhəri günü biz kilsəyə gedib 1915-ci ildə ölənlərin ruhuna dua oxuduq və dünən etdiklərimizə görə bağışlanmağımızı dilədik... Amma biz XOCALINI bizim vətənimizin bir hissəsini zəbt etmiş digər 30 minlik murdarlardan təmizlədik." Qeyd edək ki, 1992-ci il fevralın 26-da Ermənistan qoşunları tərəfindən azərbaycanlı mülki şəxslərə qarşı törədilmiş Xocalı qətliamının əsas təqsirkarlarından biri də beynəlxalq terrorçu Monte Melkonyan olub və döyüşlərdə öldürülüb. O, Ermənistanın milli qəhrəmanıdır. Beləliklə, Ermənistan terrorçu dövlətdir. 2016-cı ildə Ermənistan prezidentinin, hökumət nazirlərinin, hakim partiya rəhbərlərinin və parlamentarilərin iştirakı ilə Yerevanda Qaregin Njdenin - erməni millətçisinin və nasistinin abidəsi açılıb. Beləliklə, bu süni dövlət həm də faşizm yuvasıdır, burada terrorizm dövlət səviyyəsində dəstəklənir. Birmənalı şəkildə qeyd etmək vacibdir ki, həm fiziki, həm də mənəvi soyqırımı törədən ermənilərin qarşısını imperiya rəhbərləri nəinki alırdı, əksinə onlara hərtərəfli dəstək də verirdilər.

Ermənilər tərəfindən törədilmiş Xocalı faciəsinin soyqırımı olması Livanın paytaxtı Beyrutda yaşayan bir erməni jurnalistin yazısı ilə də təsdiqini tapır. "Əş-Şərq" agentliyi tərəfindən nəşr olunmuş bu qanlı hadisələri təsvir edən kitabın adı "Xaç naminə..."dir. Müəllif Daud Xeyriyan kitabın 19-76-cı səhifələrini Xocalı hadisələrinə həsr etmişdir. Soyqırımı iştirakçısı yazır: "Bəzən biz ölülərin üzərindən yürüməli olurduq. Daşbulaq yaxınlığındakı bataqlığı keçmək üçün cəsədlərdən döşənmiş yol düzəltdik. Mən ölülər üzərindən yürüməyə etiraz etdim. Sonra, polkovnik Ohanyan mənə qorxmamaq əmri verdi. Bu hərbi qanunlardan biridir. Mən ayağımı 9 ve ya 10 yaşlarında bir qızın sinəsinə basaraq yürüməyə başladım... Mənim ayaqlarım və mənim fotokameram qan içərisində idi...". O yazır ki, "Xaç "Qaflan" erməni qrupu (cəsədlərin yandırılması ilə məşğul olan) martın 2-də türklərin (azərbaycanlıların - S.M.) 100 nəfərinin cəsədini toplamış və Xocalıdan bir kilometr qərbdə olan bir yerdə onları yandırmışdır... Mən 10 yaşında əlindən və başından yaralanmış bir qızın avtomobil yolunda yerdə uzandığını gördüm. Onun üzü artıq mavi rəngə çalırdı. Lakin aclıq, soyuqluq və yaralarına baxmayaraq hələ sağ idi, çətinliklə nəfəs alırdı. Onu da ölənlərin içinə atdılar və yandırdılar. Yanan meyitlərin içindən ağlamaq səsi gəlirdi.

Günahsız insanların qanını tökməkdən doymayan erməni vandalları sentyabrın 26-da Əsgəran qalasının 50 metrliyində Xocalı milisinin Dövlət Avtomobil Müfəttişliyinin əməkdaşları Natiq Əhmədovu və Əli Vəliyevi səhər sübh çağı Ağdamdan Xocalıya gələrkən sonuncunun şəxsi 06 markalı "Jiquli"sində vəhşicəsinə qətlə yetirmişdilər. Hadisə yerini gəlib müayinə etmək üçün Şuşada yerləşən istintaq qrupuna məlumat verildi. Müayinəni Xocalı milisinin baş əməliyyat müvəkkili Hafis Adilov etdi. Onların necə qəddarcasına güllələnməsi indi də gözlərimin önündədir və bu vəhşilik məni dəhşətə gətirir. Rəhmətlik Əlinin dişlərini də gülləyib tökmüşdülər. Asfaltın ortasında və kənarlarında patron gilizlərindən barmaq basmağa yer də yox idi. Hadisəni olduğu kimi sənədləşdirdik. Hər ikisinə ölümündən sonra Milli Qəhrəman adı verilmişdir.

Yeri gəlmişkən onu da deyim ki, Xocalının yolunu tanımayan şəxslər, baş verənlərdən xəbərsiz olanlar özlərindən uydurma hadisələr düzəldirlər. 1988-ci ildən soyqırımı törədilənədək orada işləmiş və yaşamış adamlar, baş verənləri düzgün, dəqiq təsvir edə bilərlər. Hazırda elə adamlara rast gəlirsən ki, heç DQMV-də, Xocalıda, Şuşa və s. yerlərdə olmaya-olmaya kitablar yazır, qəzetlərdə, televiziya verilişlərində "operativ" çıxışlar edirlər. Quramalarla elə bəhs edirlər, yalanı elə deyirlər, ağızdan-ağıza, havadan eşitdiklərini də hay-küylə xalqa elə çatdırırlar ki, o hadisələri görməyən, xəbəri belə olmayanlar doğru, iştirakçılar isə yalan olur, ictimaiyyəti çaşbaş salır, ictimai rəyi çaşdırmaq bir yana, tarixi də saxtalaşdırır, gələcək nəsli səhv səmtə yönəldirlər. Buna görə də həqiqəti ictimaiyyətə çatdırmaq həqiqi şahidlərin və iştirakçıların ən vicdani vəzifəsidir.

1997-ci il fevral ayının 25-də ümummilli lider Heydər Əliyevin imzaladığı sərəncama əsasən hər il respublika ərazisində fevralın 26-da Xocalı işğal olunduğu saat 17:00-da Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunur. Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq və erməni dezinformasiyasını ifşa etmək üçün hər bir azərbaycanlıya informatik döyüş əmri verib. Ona görə də hər bir tarixi həqiqət, ermənilərin törətdikləri soyqırımı, etnik təmizləmə, terror, vandallıq, qaniçənlik və s. qeyri-insani faktları kütləvi informasiya vasitələrində, ədəbiyyatlarda, publisistik yazılarda, nəşrlərdə daim həm ölkəmizin, həm də dünya ictimaiyyətinin nəzərinə çatdırılmalıdır. Ulu öndər Heydər Əliyevin layiqli varisi, dövlət başçısı İlham Əliyevin, ölkəmizin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın bu istiqamətdə müstəsna xidmətləri vardır. Heydər Əliyev Fondunun vitse-prezidenti, Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumunun Mədəniyyətlərarası Dialoq üzrə Baş Koordinatoru Leyla Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən "Xocalıya ədalət!" kampaniyasının beynəlxalq miqyasda keçirilməsi bu faciənin tanıdılması, fakt və həqiqətlərə dünya ictimaiyyətinin diqqətinin cəlb edilməsi istiqamətində çox effektli və mühüm tədbir olmuşdur. Kampaniya nəticəsində dünyanın bir sıra parlamentləri, həmçinin İƏT Xarici İşlər Nazirləri Şurası və İƏT Parlament İttifaqı tərəfindən Xocalı soyqırımı aktı insanlığa qarşı cinayət kimi tanınıb. Xocalı və digər soyqırımları xalqımızın qan yaddaşıdır. BMT Təhlükəsizlik Şurası, BMT-nin Baş Assambleyası, ATƏT, Avropa Şurası Parlament Assambleyası, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, NATO və digər təşkilatlar Azərbaycanın haqlı mövqeyini dəstəkləyir, ərazi bütövlüyü və suverenliyinə hörmət ifadə edirlər. Beləliklə, Xocalı soyqırımı, günahsız qurbanlarımız və şəhidlərimizin ruhları daim bizi torpaqlarımızı azad etməyə, işğalçı və qaniçənlərə layiqli cavab verməyə haraylayır.

**Sabir MƏMMƏDOV,**
**Xocalı şəhər milis (indi polis) bölməsinin sabiq rəisi.**